# ATA YURDUNA BAĞLI YAZIÇI

Vaqif Rüstəmovu uzun illərdir ki, tanıyıram. Gözəl tarixçidir, Azərbaycanın və dünya tarixinin baş vermiş olaylarına yaxşı bələddir. Uzun müddət İmişli rayon Tarix-Diyarşünaslıq Muzeyinin, Şöhrət muzeyi və Dövlət Rəsm Qalereyasının direktoru kimi bu rayonun mədəni-tarixi həyatında əhəmiyyətli izlər qoyub. Muzey direktoru işlədiyi müddətdə də, sonralar Respublika Mədəniyyət Nazirliyinin Tarixi Abidələrin Mühafizəsi və Bərpası idarəsində baş elmi işçi işləyəndə də, müəllim kimi şagirdlərinə Azərbaycan tarixini daha dərindən sevdirəndə də dövrü mətbuatda çap olunmuş elmi-siyasi, tarixi məqalə və oçerklərində də, onun vətən sevdalısı olduğunu bilirdim. Bir neçə məqamda Vaqif müəllimin müxtəlif nəsr əsərlərinin də olduğunu öyrəndim. Nəhayət, yaxın vaxtlarda onun ötən il çap olunmuş “Qaçaq Süleyman” kitabını elə onun özü mənə verdi. Kitab müəllifin “Qaçaq Süleyman” və “Səsverən qaya” romanları daxildir. Adətən hər hansı bir əsəri oxuyarkən elə bir neçə səhifədən onun haqqında qısa təsəvvürüm yaranır. Öncədən deyim ki, kitabı az qala bir nəfəsə oxuyub qurtardım.



*Tariyel ABBASLI,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*Prezident təqaüdçüsü*

“Qaçaq Süleyman” romanı “Qanlı dərə” və “Heydər dağı” adlanan iki hissədən ibarətdir.

Əsərdə xalq qəhrəmanı Qaçaq Süleymanın İran çapovulçularına və erməni-daşnaq qüvvələrinə qarşı qorxmaz, cəsur döyüşlərindən bəhs edilir. Xalqımızın təsəvvüründə lap elə Sovet dönəmində də qaçaqlara böyük sevgi və məhəbbət olub. El arasında belə bir ifadə də işlənib həmişə: “Qaçağı el saxlar”. Bu mənada öyün və deyimlərdə, əfsanə və rəvayətlərdə, daha real olaraq poeziya və nəsr əsərlərində bu xalq qəhrəmanları həmişə anılmışdır. Qaçaq Nəbi, Qaçaq Kərəm, Qaçaq İsmayıl, Qaçaq Süleyman, Kor Abdulla, Qaçaq Nazar, Qaçaq Fərzalı və s. adlarını bir az da artıra biləcəyimiz xalq qəhrəmanları niyə qaçaq düşmüş, bu adı üzərlərinə götürmüşlər. Çünki onlar həmişə el-oba ilə, camaatla bir yerdə olmuş, qoluzorluların, çar hökümətinin yerli və kənardan gəlmə çinovniklərin zəhmətkeş xalq kütləsini amansızcasına istismar etdiklərinin şahidi olmuşdular. Bu hadisələrə dözə bilməyən elin bir fədakar, deyək ki, qəhrəman oğlu həmin çinovnikləri, zalım bəyləri qanına qəltan edərək, nəticədə evindən-eşiyindən didərgin düşür, qaçağa çevrilirdi. Haqqında söhbət açdığımız Qaçaq Süleyman da məhz bu taleyi yaşamışdır.

Cəbrayıl qəzasının Əhmədalılar kəndində doğulmuş Süleyman da ata-babasının torpaq mülklərini çar çinovniklərinin əli ilə onların əlindən çıxaran kəndxudanı öldürərək dağlara çəkilir.

Romandakı hadisələr əsasən Cəbayıl rayonunun ərazisindəki Daşkəsən kəndində, Quycaq, Horovlu, Süleymanlı, Əfəndilər kəndlərində cərəyan edir. Daşkəsən kəndi Cəbrayılda və bütün Qaradağda özünün kiçik manufaktura sənayesi - ipək fabrikləri ilə məşhur olmuşdur. Sovet hakimiyyətinin ilk illərinə qədər öz fəaliyyətini davam etdirən bu fabriklər, onların avadanlıq və dəzgahları yenə də ermənilərin təhriki ilə Xankəndiyə (o vaxtlar üzdəniraq Stepanakertə) köçürülmüşdür.

Əsərin müəllifi olan Vaqif Rüstəmovun valideynləri Daşkəsən kəndindəndir. Lakin Yalnız Vaqif müəllim İmişlidə doğulub, orta məktəbi də orada bitirib. Uşaqlıq və ilk gənclik illəri İmişli ilə bağlıdır. Bunları deməkdə məqsədim odur ki, yəqin ki, müəllif bu yerləri yaxşı tanımaz. Amma əsərdəki Daşkəsən kəndinin məşhur yer adları, dağları, dərələri, kəhriz və bulaqları elə dəqiqliklə təsvir olunur ki, kitabı oxuyan Daşkəsənlilər artıq indi xatirəyə dönmüş o tarixi məkanları bir daha yada salırlar.

Buradakı Behbud ağa, Xanlar ağa, Mirzə Məmməd, Mirzə Məmiş, Aşıq Humay, Maya, İbad, elə Süleymanın özü konkret tarixi şəxsiyyətlər, Aydolanmaz, Səsverən qaya, Daşkəsən çayı, Alı bəyin kəhrizi, Heydər dağı və sö yer adları unudulmaz tarixi məkanlardır. Bu mənada romanı tarixin mühüm bir dönəmini əks etdirən gözəl tarixi-bədii əsər adlandırmaq olar. Əsərin başlanğıcında müəllif göstərir ki, Arazı keçib İrandan çapqınçılığa gələn, Arazboyu kəndləri yağmalayan quldur Şirxanın silahlı dəstəsi böyük bir qüvvə ilə Maralyandan keçərək Daşkəsən kəndinə yaxınlaşır. Bunu eşidən Behbud ağa kəndin say-seçmə oğullarını başına toplayır, bacısı oğlu Misiri isə təcili köməyə gəlmək üçün 2 günlüyə Əhmədalılara, doğma kəndinə gəlmiş Süleymanın dalınca göndərir. Süleyman öz dəstəsi ilə gələnə qədər Behbud ağa, Xanlar ağa və digər silahlı kənd əhli quldur Şirxanı və onun dəstəsini qovurlar. Bu vaxt Qaçaq Süleyman da gəlib çıxır və bir güllə ilə Şirxanın papağını deşik-deşik edir. Sonra isə: - Bu dəfə də səni öldürmədim, Allah üçüncü dəfədən saxlasın! - deyə onu qovur.

Burada mənim yadıma uşaqlıq yaddaşımda ilişib qalan bir əhvalat, söyləmə düşdü. Uşaq vaxtı tez-tez Sarıcallı kəndinə gedib-gəlirdim. Orada qohumlarımız var idi. Bu qohumlardan biri rəhmətlik Dadaş kişi idi. Dadaş kişi deyirdi ki, hələ Sovet hakimiyyəti qurulmamış vaxtlarda İrandan müxtəlif quldur dəstələri Arazı keçib kəndlərə hücum edir, ələ keçən malheyvan və başqa şeyləri talayırdılar. Bunların içərisində biri varmış, hər dəfə gəlib kəndləri çapıb-talayırmış. Anası hər dəfə onun qabağını kəsib deyirmiş getmə, Qarabağda səni öldürəcəklər. Həmin oğlan deyirmiş ki, ana, Qarabağda kişi var? Kim öldürəcək məni? Anası deyib, bala, Qarabağda kişi var e, sənin qabağına çıxmır. Belə çapqınçılıq səfərlərinin birində həmin adamı vururlar. Meyiti üç gün kəndin kənarında qalır. Anasına xəbər gedir. Ana dəvə ilə gəlib oğlunun meyitini aparır və orada belə bir bayatı çağırır:

Qarabağda ordu var,
Ordu köçüb yurdu var,
Bala, sənə dedimmi getmə,
Adam yeyən qurdu var.

Vaqif müəllimin əsərindəki iranlı çapqınçıların hücumunu oxuyanda bu hekayət yadıma düşdü.

Amma mətləbdən uzaq düşməyək. “Qaçaq Süleyman” romanında müəllif Daşkəsən kəndinin bütöv ərazisinin təsvirini verir. Dağlar-dərələr qoynunda məskən salmış bu qədim Oğuz yurdunun gözəlliklərini tərənnüm edir.

Hadisələrin bu cür hərtərəfli və şirin bir dildə tərənnümü müəllifin istedadlı və dərin müşahidə qabiliyyətinə malik bir qələm sahibi olmağından xəbər verir. Səhifələrin birində oxuyuruq; Atlı dəstə Ay işığında aydın görünən Cıdır düzünə tərəf, Aydolanmaz meydanına gedirdi. Ulduzlu səmadan asılı qalmış Ayın bədirlənmiş şöləsi ətraf yerləri nura qərq etmişdi. Hərdən qara yelin sərt vıyıltısı gecənin sakitliyinə, şirinliyinə vahiməli səslə acılıq qatır, soyuq küləyi adamın sifətinə çırpırdı. Atlarını yanaşı sürən Behbud bəylə Süleyman şirin söhbət edirdilər. Onlar Daşkəsən çayı səmtinə doğru axıb qovuşan Alı bəyin kəhrizi yanında atlarını bir anlıq əylədilər. Şırıl-şırıl, həzinliklə axıb gedən suda bərq vuran Ayın parlaq əksi titrəyirdi”. Nə qədər gözəl, şairanə bəii təsvir və ifadə vasitələri var bu parçada. Eləcə də əsərin əksər hissələri belə bədii-emosional və qəlb oxşayan təqdimatlarla doludur. Buradakı tarixi yer adları - oronim və oykonimlər müəllifin bu yerləri yaxşı tanıdığından xəbər verir.




Mən yazıçıdan “axı sən İmişlidə doğulub, orada oxuyub, orada da işləmisən. Daşkəsən kəndinin bu tarixi yerləri ən incə detallarına qədər təsvir olunur əsərdə. Bunlar necə yadında qalıb?” - deyə soruşdum. Vaqif müəllim dedi ki, uşaqlıq illərimdən və gənclik illərimdən hər il Daşkəsənə gələrdik. Atam orada uzun müddət kolxoz sədri işləyib. Ona görə də hər şey, hər yer, indi yer üzündən silinmiş başqa məkanlar da mənim yadımdadır.

Əsərdə Qaçaq Süleymanın igidlikləri - həm Çar hökmətinin yerlərdəki məmurlarına qarşı, həm də illər boyu azərbaycanlılara düşmən kəsilmiş ermənilərə, onların xəlvəti yaratdıqları silahlı dəstələrə qarşı mübarizəsi, ermənilərin namərdcəsinə etdiyi qəfil hücumları ağrılı bir şəkildə təsvir olunur. Bu əsərin hər sətrini oxuduqca müəllifin nə qədər böyük bir sevgiylə doğma ata yurduna bağlılığı, vətənə, el-obaya sevgisi gilə-gilə üzə çıxır. Hər iki əsərin dilində elə söz və ifadələr var ki, onu bu günkü nəsil tanımır, bilmir.

Məsələn, donuzluq, unluq, arba, çax-çax kimi arxaik sözlər dəyirmançılıqla bağlı işlənən köhnə sözlərdir.- Yazıçı bu sözləri cümlə və ifadələr içərisində elə işlədir ki, artıq oxucu da bunu başa düşür. Yaxud dərz, bafa, vəl, xış kimi ifadələr əkinçiliklə bağlı sözlərdir. Maraqlıdır ki, əsərdə obrazların dilindən çoxlu atalar sözləri və məsəllər işlədilir. “Bağa baxarsan bağ olar, baxmazsan, dağ olar”, “İt hürər, karvan keçər”, «Varlı ol, karlı ol, elinə barlı ol».

Məsələn, “Səsverən qaya” romanı ilk baxışda belə daşa düşülür ki, bir az kənarda olan qayalıqda danışılan zaman əmələ gələn əks-sədadır. Bunu hamımız görmüşük. Amma müəllif bunları elə təsvir edib ki, doğrudan da bu qayanın qeyri-adi bir mənzərə yaradan təbiət hadisəsi olduğunu həddindən artıq ustalıqla və canlı ifadələrlə təqdim edir.

Əsərin “Maya” bölümündə Daşkəsənin hələ uşaq vaxtından qorxmaz, dilavər və cəngavər qızı olan Mayanın



keçdiyi ömür yoluna da nəzər salır, Mayanın vasitəsilə Daşkəsən və Süleymanlı camaatı arasında bir körpü - məhəbbət və birlik körpüsünün yaradılması, 1918-ci ildə Süleymanlıda gedən erməni-müsəlam davası və bunun nəticələri haqqında da maraqlı tarixi-bədii məlumatlar verir. Həmin hissədə 18 il qaçaqlıq edərək nəhayət 1917-ci ildə Çar çinovnikləri və İran sərbazlarının birgə işi nəticəsində Arazın o tayında öldürülmüş, bu vaxta qədər Qaçaq Nəbinin dəstəsində vuruşmuş, Nəbi öləndən sonra dəstəyə bir müddət rəhbərlik etmiş Süleymanı Ziyarat dağlarına köç aparan Həcərlə də görüşdürür. Burada eyni zamanda bədxah insanların Həcər xanım haqqında danışdığı hədyanlara da son qoyur sanki. Həcər Nəbidən sonra ailə qurduğu Həmzə ilə və Mollu köçü ilə yaylağa gedir. Bu isə onun haqqındakı söz-söhbətlərin tamamilə səhv və uydurma olduğunu anlama gətirir.

Beləliklə, “Qaçaq Süleyman” və “Səsverən qaya” romanları qədim tarixi köklərə malik Qarabağın, Cəbrayılın ulu yurd yerlərindən biri olan Daşkəsənə deyilmiş bir elegiyadır. Burada insanın vətənə, torpağa, yurda bağlılığı necə olmalıdır, vətənpərvər necə olmalıdır suallarına cavabları asanlıqla çözülür. Hər iki əsərdə tarixin bütün dönəmlərində azərbaycanlılara qənim kəsilmiş ermənilərin nakişiliyi, alçaqlığı, namərdliyi, dərin bir nifrətlə təsvir olunur. Əsərdə Qaçaq Süleymanın ölümüylə bağlı hadisələr kitabın sonrakı hissəsində təqdim olunacaq. Ona görə də istedadlı qələm dostuma uğurlar diləyir, yeni yaradıcılıq üfüqləri arzulayıram.

***2022***